

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 fevral 2021-ci il №16 (2524) https:mod.gov.az Qiymıəti 30 qəpik

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımı abidəsini ziyarət ediblər






*XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 29-cu ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

* * *

Xocalı soyqırımından 29 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan etdi. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca dünyasını dəyişdi. 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi.

Xocalı faciəsi təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı törətdiyi soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. İndiyə qədər 10-dan çox ölkə və İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini soyqırımı kimi tanıyıb.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman övladlarımızı Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. İllər keçdi. 2020-ci ildə baş verən Vətən müharibəsində müstəqilliyin övladları 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Vətən bütövləşdi. Bununla da xalq öz rəhbərinin ətrafında yumruq kimi birləşərək tarixi hədəflərinə qovuşdu.

## “Biz bundan sonra da çalışacağıq ki, dünya ölkələri Xocalı soyqırımını rəsmən tanısınlar”

Bir çox beynəlxalq təşkilatlar Azərbaycanın təşəbbüsü ilə Xocalı soyqırımına öz münasibətini bildirmişlər və bu istiqamətdə işlər davam etdiriləcək. Soyqırımı törədiləndə Azərbaycan, demək olar ki, informasiya blokadasında idi. O vaxt indiki imkanlar da yox idi. Ona görə bir çoxları üçün bu məsələ o qədər də aydın deyildi.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bildirib.

Həmin illərdə Azərbaycanın beynəlxalq aləmdə o qədər də böyük imkanlarının olmadığını qeyd edən dövlətimizin başçısı deyib ki, erməni lobbisi müharibə ilə bağlı, baş vermiş hadisələrlə bağlı yalan, təhrif edilmiş məlumatları ötürürdü. Beynəlxalq ictimaiyyətdə müəyyən yanlış fikirlər formalaşmışdı və bu fikirləri aradan qaldırmaq, təkzib etmək üçün biz, əlbəttə ki, böyük səylər göstərməli idik. Son illər ərzində bu fəaliyyəti ardıcıl surətdə göstərmişik, dövlət olaraq, ictimai təşkilatlar olaraq. İctimai təşkilatlar arasında, əlbəttə ki, xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istəyirəm. "Xocalıya ədalət" şüarı altında bir çox ölkələrdə müxtəlif tədbirlər keçirilib və bu gün Xocalı faciəsi haqqında dünya ölkələrində kifayət qədər dolğun məlumat var. Bizim əsas məqsədimiz bu qanlı cinayətin heç vaxt unudulmaması, nə Azərbaycanda, nə də dünyada heç vaxt təkrarlanmamasıdır. Azərbaycanın heç vaxt 1990-cı illərin əvvəlində olan aciz duruma düşməməsi, hər zaman özünü, öz vətəndaşlarını qoruya bilməsidir.

Bu gün Xocalı soyqırımı ilə bağlı dünyada geniş məlumatın olduğunu bildirən Prezident İlham Əliyev deyib: "Halbuki burada da Ermənistan tərəfi müxtəlif yollarla yalan informasiyaları ortalığa atmaqla bu qanlı cinayəti də Azərbaycan dövlətinin üzərinə atmaq istəyirdi. Sanki Azərbaycan özü Xocalı soyqırımını törətmişdir. Bu addımların təkrarını biz ikinci Qarabağ müharibəsində də gördük. Gəncəni, Tərtəri, Ağdamı, digər şəhərləri bombalayanda Ermənistan rəhbərliyi deyirdi ki, bunu Azərbaycan özü törədib. Halbuki ballistik raketlərlə atılan atəş peyk tərəfindən izlənilir və böyük dövlətlər və ilk növbədə, Minsk qrupuna həmsədrlik edən dövlətlər bütün bu mənzərəni izləyirdilər. Ballistik raketlər Ermənistan ərazisindən buraxılmışdır - Gəncə şəhərinə, Tərtər, Bərdə, digər şəhərlərə. Yəni, növbəti erməni yalanı cəhdi göstərildi, amma keçmədi. Çünki artıq vəziyyət tam başqadır və bizim məlumatı ötürmək üçün imkanlarımız var".

Prezident əmin olduğunu bildirib ki, illər keçdikcə Xocalı soyqırımı haqqında bütün dünya biləcək. Biz bundan sonra da çalışacağıq ki, dünya ölkələri bu soyqırımını rəsmən tanısınlar. Bu işlər bundan sonra da ardıcıl surətdə aparılacaq.

## Azərbaycan Prezidenti İlham Əliyev:

# Bu, tarixi hadisədir, Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmayıb

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib.*



Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, bu kompleksdə doqquzmərtəbəli 30 bina tikilib. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial infrastrukturla təchiz edilib. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Dövlətimizin başçısının bu ilin yanvarında imzaladığı Sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək.

Kompleksla tanışlıqdan sonra Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

- Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Bu münasibətlə sizi təbrik edirəm. Burada 30 bina inşa edilibdir. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox gənişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird yerlik məktəb inşa edilir. Yəni, yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib.

Bu gün, eyni zamanda, Şağan qəsəbəsində reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı da olub. Orada da minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda, müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir. Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur, ən müasir protezlərdir. Bu protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər.

Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni, bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Mən bu rəqəmləri sadalamaqla dövlətin bu kateqoriyadan olan insanlara qayğısını bir daha dilə gətirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.

İkinci Qarabağ müharibəsində 3 minə yaxın şəhidimiz olub. Mən, o cümlədən bunların arasında mülki vətəndaşları da nəzərdə tuturam. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah sizə, onların yaxınlarına səbir versin. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmayıb. Biz Birinci Qarabağ müharibəsinin şəhidlərinin, İkinci Qarabağ müharibəsinin şəhidlərinin qanını aldıq. Düşməndən intiqamımızı aldıq, ərazi bütövlüyümüzü bərpa etdik və şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq.

Birinci Qarabağ müharibəsində 12 mindən çox şəhidimiz olmuşdur və 4 minə yaxın hərbçimiz itkin düşmüşdür, təqribən 16 min itkimiz olmuşdur və torpaqlarımız işğal altına düşmüşdür. İkinci Qarabağ müharibəsində şəhidlərimizin sayı müharibənin miqyasına görə həddindən artıq azdır. Əlbəttə, hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir. Hər bir insanın həyatı qiymətsizdir. Ancaq nəzərə alsaq ki, genişmiqyaslı müharibə aparılıb və ilk günlərdən əkshücum əməliyyatı, əslində, hücum əməliyyatına çevrilmişdir. Ermənilərin 30 il ərzində qurduqları istehkamları, 5-6 xətt müdafiə istehkamlarını və o bölgənin relyefini nəzərə alsaq, tam qətiyyətlə deyə bilərik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Hətta dünyanın aparıcı ölkələrinin hərbi ekspertləri təəccüb edirlər ki, biz torpaqlarımızı işğalçılardan belə az itkilərlə azad etdik. Nəyə görə? Çünki bütün əməliyyatlar planlaşdırılanda ən vacib amillərdən biri itkilərin az olması idi. Hər gün əməliyyat planını təsdiq edərkən o amil ön planda idi.

Müharibə itkisiz olmur. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ermənistan işğalçılıq müharibəsi aparırdı. Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilmişdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır, gənc nəsil üçün örnək olmalıdır və olacaq.

Biz ədaləti bərpa etdik, 30 il ərzində işğal altında olan torpaqları qaytardıq və dövlətimizin, xalqımızın gücünü göstərdik. Müharibənin ilk günündən üstünlük bizim tərəfimizdə idi. Düşmən demək olar ki, panikaya, isterikaya qapılmışdı. Ermənistan ordusunda onların özlərinin etirafına görə 10 mindən çox fərari olmuşdur. İndi Ermənistan dövləti bilmir ki, bu fərariləri necə mühakimə etsin. Çünki bu da böyük problemlərə gətirib çıxara bilər. Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdır. Halbuki Birinci Qarabağ müharibəsində fərarilər olub.

Birinci Qarabağ müharibəsində bizim qəhrəman övladlarımız şücaət göstərmişdilər. Ancaq o vaxt Azərbaycanın başında olan insanlar lazımi tədbirlər görə bilməmişdilər. Xüsusilə AXC-Müsavat cütlüyünün dövründə Şuşanın, Laçının, Kəlbəcərin düşmənə verilməsi böyük xəyanət idi və faktiki olaraq müharibənin sonrakı gedişatını şərtləndirdi. Çünki Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradılmışdır və ondan sonra digər torpaqların işğalı üçün ermənilərin çox böyük üstünlüyü yaranmışdır.

O vaxt faktiki olaraq bizim bölgələrimizin müdafiəsi, demək olar ki, özünümüdafiə qüvvələrinin öhdəsinə buraxılmışdı. Nizami ordu yox idi. Hətta insanları Kəlbəcərdən, Laçından çıxarmaq üçün lazımi tədbirlər görülməmişdi, ona görə də əhali arasında böyük itkilər olmuşdu. Sabah Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir. Bu cinayəti Ermənistan dövləti törədib. Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alındı.

Əlbəttə ki, biz bütün bu illər ərzində müharibəyə hazırlaşırdıq. Bunu heç gizlətmirdik. Çünki bizim torpaqlarımız işğal altında idi və biz görürdük ki, bu məsələnin sülh yolu ilə həlli mümkün deyil. Artıq son illər ərzində buna tam əmin idik. Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və deyə bilərəm ki, beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu müharibənin sülh yolu ilə həlli mümkün deyil. Halbuki bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksək vəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz gördük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əkstəqdirdə 30 il ərzində bu məsələ həll olunardı. Deməli, buna maraq yoxdur, yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kiminsə qane edirdi. Kiminsə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın. Kiminsə qane edirdi ki, bizim torpaqlarımız işğal altındadır və sanki Azərbaycana bu, müəyyən təzyiq mexanizmi kimi qəbul edilirdi. Bizi inandırmağa çalışırdılar ki, indi reallıq yaranıb, 30 il ərzində bu reallıq mövcuddur və Azərbaycan bu reallıqla barışmalıdır. Mən isə deyirdim ki, heç vaxt biz bu vəziyyətlə barışmayacağıq. Mən deyirdim, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik. Bütün gücümüzü səfərbər etdik, bir çox illər ərzində ardıcıl siyasət apardıq, həm beynəlxalq müstəvidə, həm iqtisadi sahədə, həm qonşu ölkələrlə münasibətlərdə, regional layihələrin icrasında və əlbəttə ki, ordu quruculuğunun təkmilləşdirilməsi üçün böyük işlər gördük. Eyni zamanda, gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi. Bax, bu nəsil torpaqlarımızı azad etdi. Şuşada Cıdır düzündə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, mən 2003-cü ildə hakimiyyətə gələndə bu gün 25-30 yaşında olan insanlar uşaq idi. Biz onları vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişdirdik və onlar bizim torpaqlarımızı işğalçılardan azad etdilər. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular. Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər. Bu, tarixi hadisədir. Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmamışdır. Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın iradəsini göstərdi. Bir daha bütün dünya gördü ki, əgər iradə varsa, güc varsa, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət varsa, haqq-ədalət öz yerini tapır. Biz bunu nümayiş etdirdik.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Prezidenti İlham Əliyev:

# Bu, tarixi hadisədir, Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmayıb



(Əvvəli 2-ci səhifədə)

İndi baxın, Ermənistan nə gündədir. Orada böhran yaşanır, gündə toqquşmalar, həbslər baş verir, demokratik əsaslar, demək olar ki, tamamilə pozulub. Ermənistan heç vaxt bu cür acınacaqlı vəziyyətdə olmamışdır. Onları bu vəziyyətə salan onların rəhbərləridir. Həm 20 il Ermənistana başçılıq edən xunta rəhbərləri - Köçəryan-Sarkisyan xuntası, həm ondan sonra gələn hakimiyyət. Sonra gələn hakimiyyətin qarşısında seçim var idi - ya işğalçılıq siyasətini davam etdirəcək və özünü bədbəxt edəcək, ya da ki, öz xoşu ilə bizim torpağımızdan çıxacaq. Bu şansı biz verdik və mən hətta müharibə dövründə dəfələrlə demişdim ki, bizə tarix versinlər, onlar hansı tarixdə hansı bölgələrdən çıxırlar və biz müharibəni dayandırırıq. Belə də oldu, tarix verilən kimi müharibə dayandı. Ancaq onlar məcbur olub bu tarixi bizə verdilər, öz xoşuna yox. Biz artıq onların ordusunu, Ermənistan ordusunun canlı qüvvəsini məhv edəndən, onlar diz çökəndən sonra buna məcbur oldular və kapitulyasiya aktına imza atdılar və bizim qələbəmiz təsdiq olundu.

Onsuz da biz bütün torpaqları azad edəcəkdik. Ancaq itkilər çox ola bilərdi, xüsusilə Kəlbəcər, Laçın istiqamətində. Artıq qış gəlmişdi, qar yağmağa başlamışdı, orada bizim itkilərimiz çox ola bilərdi. Ona görə düşməni hərbi yolla məğlub etdik, torpağımızdan qovduq, Şuşa şəhərini və digər şəhərləri işğalçılardan azad etdik. Ondan sonra Laçın, Kəlbəcər rayonlarını və Ağdam rayonunun bir hissəsini siyasi yollarla qaytardıq və artıq bizim nəzarətimizdədir.

Müharibədən sonrakı dövrə gəldikdə indi hər kəs görür ki, Azərbaycanda inkişaf gedir, quruculuq işləri başlayıb, Ermənistanda isə böhran hökm sürür, bir-birilərini ittiham edirlər, bir-birilərini didirlər. Hər zaman xarici nümayəndələr bizə deyirdilər ki, Ermənistan cəmiyyəti birlik nümayiş etdirir və Ermənistan cəmiyyətində milli birlik var. İndi biz görürük haradadır bu milli birlik. Bu məğlubiyyətdə bir-birilərini ittiham edirlər, bir-birilərini günahlandırırlar, kütləvi həbslər baş verir. Amma nədənsə demokratiyadan dəm vuran bəzi qeyri-hökumət təşkilatları və bəzi hökumətlər buna göz yumurlar. Necə olur Ermənistanda müxalifət gündəlik formatda əzilir, dağıdılır, həbs edilir, öldürülür, amma buna heç kim reaksiya vermir. Bu, nəyi göstərir? Necə deyərlər, həmin 30 illik tarix bir daha əks etdirir ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq. Bizə qarşı mütəşəkkil və güclü dairələr birləşib bizim torpağımızı əbədi işğal altında saxlamaq istəyirdilər. Ermənistan, sadəcə olaraq, bir alət idi, bir vasitə idi. Biz bunu dağıtdıq. Biz bu məkrli siyasəti alt-üst etdik və haqq-ədaləti bərpa etdik.

Ermənistan rəhbərliyi indi gileylənir ki, onlara verilən silahlar yararsız idi. Bilirsiniz, kimisə günahlandırmaq hər şeydən asandır. Ancaq onu da deməlidirlər ki, bu silahlar onlara pulsuz verilmişdir, müftə verilmişdir. Özü də bir il yox, iki il yox, 30 il ərzində onları bizə qarşı silahlandırırdılar. Biz indi bütün imkanlardan istifadə edib bölgədə gedən prosesləri diqqətlə izləyirik, bizim imkanlarımız var, informasiya mənbələrimiz kifayət qədər çoxdur. Biz bilirik müharibə dövründə Ermənistana nə qədər pulsuz silah verildi, müharibədən əvvəl nə qədər verildi. İyul toqquşmasından dərhal sonra, iyulun 17-dən başlayaraq müharibənin son gününə qədər Ermənistana gündə bir neçə təyyarə pulsuz silah gətirirdi. Həmin o "İskəndər" raketlərini Ermənistan pulla alıb? Pulsuz alıb. "Elbrus", "Toçka-U", "Skad" raketlərini pulla alıb? Pulsuz alıb. "S-300", hansı ki, biz yeddisini məhv etmişik, onlar da pulsuz verilib, tanklar da, toplar da, digər hava hücumuna qarşı sistemlər də. Biz onların hamısını məhv etmişik. Ermənistan ordusu yoxdur, bitib, qurtarıb.

Amma bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan vermərik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər.

Biz bütün işlərə nəzarət edirik. Biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Yeni kontraktlar imzalanıb, ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Müharibə, eyni zamanda, ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha da çevik, daha da döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaqdır.





Müharibədən sonra bu gün dünyada yeni reallıq yaranıb. Bu reallığı biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Biz iradə göstərmişik, güc göstərmişik. Bəli, biz gözləmişik. Həyat göstərdi ki, ən düzgün an seçilmişdir. İyul ayında bizə qarşı sərhəddə təxribat törədiləndə də biz əks-hücuma keçə bilərdik. Ancaq o vaxt mən əks-hücum əməliyyatını dayandırmışdım. Biz erməniləri öz torpağımızdan qovub, düz sərhədə gəlib, sərhədin o tərəfinə keçmədik. Bizi buna təhrik etmək istəyirdilər. Bizi təxribata çəkmək istəyirdilər. Əgər biz o vaxt - iyul ayında Ermənistan ərazisinə keçsəydik, əgər mən o vaxt ordumuzu dayandırmasaydım, vəziyyət başqa cür ola bilərdi. Bizi, əslində, buna təhrik edirdilər, təxribata təhrik edirdilər. Ermənistandan atılan raketlər Gəncənin, Bərdə, Tərtər, Goranboy, Naftalan, Ağdam, Füzuli rayonlarımızın dağılmasına gətirib çıxarmışdır. Onların atdığı raketlərin biri Xızıya gəlib çatmışdır. Görün, Xızını döyüş bölgəsindən neçə kilometr məsafə ayırır. Ona görə, bu təxribat planları var idi və düzgün an, düzgün məqam seçildi və düzgün addımlar atıldı. Ermənistan ordusunu 44 günə məhv etdik, onların əsrlər boyu yaratdıqları mifləri darmadağın etdik. Göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır. Göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Onlar bizim qabağımızda diz çökdülər. Onlar heç vaxt belə rəzil vəziyyətdə olmamışdılar. Kimsə onları cəzalandırmalı idi, yoxsa yox? Bütün dünyaya meydan oxuyurlar. Bütün dünyaya əsassız tələblər irəli sürürlər. Sanki hər kəs bunlara kömək etməlidir, bunları müftə yedizdirməlidir, içizdirməlidir, silahla təmin etməlidir. Bir zəli kimi yapışıblar dünya ölkələrinin vücuduna. Bizim torpağımızı işğal edib, insanları evsiz-eşiksiz qoyub, tarixi abidələrimizi, məscidlərimizi dağıdıb. Ondan sonra da deyib ki, bu, erməni torpağıdır. Kimsə bunları cəzalandırmalı idi, yoxsa yox? Kimsə onları çökdürməli idi, yoxsa yox? Biz bunu etdik. Tarixi qələbədir, tarixi nailiyyətdir. Bir daha demək istəyirəm ki, bu qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı.

Mən sizə öz hörmətimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbər heyəti Xocalı soyqırımı abidəsini ziyarət edib

*Fevralın 26-da Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Xocalı soyqırımı abidəsini ziyarət edib.*




Abidə önünə gül dəstələri qoyulub və faciə qurbanlarının xatirəsi ehtiramla yad edilib.

Tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə XX əsrin sonlarında Xocalıda üzləşdi. Bu, bəşər tarixində az-az təsadüf olunan dəhşətli cinayətlərdən biri və Ermənistanın ölkəmizə hərbi təcavüzünün kulminasiya nöqtəsi, eyni zamanda, Azərbaycan tarixinin 29 il əvvəl yaşanmış qanlı səhifəsi idi.

Xocalı soyqırımı əvvəlcədən düşünülmüş şəkildə, azərbaycanlıların milli-etnik əlamətlərinə görə kütləvi surətdə məhv edilməsi məqsədi ilə həyata keçirilən soyqırımıdır, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımı və erməni məkrli siyasətinin qanlı cinayətləri yaddaşımızdan heç vaxt silinməyəcək.

Azərbaycan xalqına qarşı ermənilərin törətdikləri kütləvi cinayətlərdən Xocalı soyqırımı antibəşəri mahiyyəti, faciənin miqyası, qəddarlığı və amansızlığı ilə xüsusi olaraq seçilir. Məlum olduğu kimi, 1988-ci ilin əvvəllərində ermənilər Dağlıq Qarabağı birtərəfli şəkildə ayırmaq və onu Ermənistana birləşdirmək məqsədilə tarixi planlarını həyata keçirmək üçün Azərbaycana qarşı təcavüzkar fəaliyyətlərə başladılar. 1991-ci ilin sonunda və 1992-ci ilin əvvəlində silahlı əməliyyatlar və Ermənistanın Azərbaycana qarşı hücumları intensivləşdi. Nəticədə Xocalı bu əməliyyatların hədəfinə çevrildi.

İşğalçı Ermənistan Xocalıda törətdiyi dəhşətli cinayətin miqyasını və emosional hisslər yaratmaq gücünü məhdudlaşdırmağa çalışsa da, dünyaya artıq hər şeydən məlumatlıdır. Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda bir çox insanlar baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

**"Azərbaycan Ordusu"**

# Erkan Özoral: Xocalı faciəsinin səbəbkarları, bu qətliamı törədənlər mütləq mühakimə olunmalıdırlar

Bu gün hamımız dünyaya Xocalı üçün ədalət deyə səslənirik. Xocalı qətliamı bəşəriyyətə qarşı cinayətdir. İnsanlara qarşı bu vəhşiliyi törədənlərin, qətliamın günahkarları öz cəzalarını mütləq almalıdırlar.

AZƏRTAC xəbər verir ki, bu fikri "Ana harayı" abidəsini ziyarət edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral jurnalistlərə müsahibəsində deyib.

Səfir bildirib ki, artıq müzəffər Azərbaycan Ordusu torpaqlarını işğalçılardan azad edərək ərazi bütövlüyünü bərpa edib. İlk dəfə Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən sonra Xocalı soyqırımı qurbanlarının xatirəsini anırıq. İnşallah, gələcəkdə Xocalıda yurdlarından didərgin düşən şəxslər, eləcə də məcburi köçkünlər öz torpaqlarına qayıdacaq. Xocalıda şəhid olanların da ruhu şad olacaq.

Xocalı faciəsinin səbəbkarları mütləq mühakimə olunmalıdırlar.

# Vətən müharibəsi qazisi: Biz döyüşlərdə həm Xocalı soyqırımı qurbanlarının, həm də şəhidlərimizin qisasını aldıq

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərini zəbt edərək kütləvi qırğın törədiblər. Bilirik ki, ermənilər Xocalıda 613 günahsız insanı amansızlıqla qətlə yetiriblər. Soyqırımı zamanı ermənilər xalqımıza qarşı vəhşilik törədiblər. Vətən müharibəsində döyüşlər zamanı düşmənin vəhşiliyinin daha yaxından şahidi oldum. Tarixin hələ indiyədək şahid olmadığı bu qətliamı yalnız insanlığını, mərhəmət hissini itirən vəhşi ermənilər törədə bilərdilər. Bu, dəhşətli faciədir. Odur ki, biz Xocalı faciəsini heç vaxt unutmayacağıq.

Bu barədə AZƏRTAC-a müsahibəsində fevralın 26-da Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının abidəsini ziyarət edən Vətən müharibəsi qazisi Mobil Əhmədzadə deyib. O, həmçinin bildirib ki, İkinci Qarabağ müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. Noyabrın 8-də Şuşa azad edilən gün ağır yaralanıb. Düşmən tərəfindən əsir götürülüb. Xocalı qətliamı Azərbaycan xalqına vurulan ən ağır zərbədir. Biz Vətən müharibəsi zamanı döyüşlərdə həm Xocalı soyqırımı qurbanlarının, həm də bütün şəhidlərimizin qisasını aldıq, günahsız tökülən qanlar yerdə qalmadı.

# Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirildi






*Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində silsilə tədbirlər keçirildi. Tədbirlər çərçivəsində hərbi qulluqçular Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələri ziyarət etdi, kitab, foto və rəsm sərgiləri ilə tanış oldu, şəxsi heyətə faciəyə həsr olunan ədəbi-bədii kompozisiyalar, bədii və sənədli filmlər nümayiş etdirildi, eləcə də səyyar təşviqat qruplarının azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşləri təşkil edildi.*

Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı "Qan yaddaşımız" adlı tədbir keçirildi.

Tədbirlərdə "N" hərbi hissəsinin şəxsi heyəti, xüsusi təyinatlı təhsil müəssisəsinin kursantları iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, eləcə də Xocalı soyqırımı qurbanlarının və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov Xocalı soyqırımı ilə bağlı tədbir iştirakçılarına geniş məlumat verdi. "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı xüsusi amansızlıqla törədilmiş Xocalı soyqırımı Azərbaycan tarixinin qan yaddaşına çevrilib. Bu soyqırımı nəticəsində Xocalı şəhəri işğal olunaraq yerlə-yeksan edildi. Azərbaycanlılara qarşı soyqırımı aktı həyata keçirildi. Xocalı faciəsi nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i yaşlı olmaqla, 613 Xocalı sakini qətlə yetirildi. Bundan əlavə, bu soyqırımı nəticəsində 8 ailənin həyatına son qoyuldu, 25 uşaq hər iki valideynindən, 132 uşaq isə valideynlərinin birindən məhrum edildi və 1275 nəfər girov götürüldü. XX əsrin ən dəhşətli və qəddarcasına törədilmiş cinayəti olan Xocalı faciəsi məqsədli şəkildə həyata keçirilib. Xalqımız Xocalı soyqırımı qurbanlarını heç vaxt unutmayacaq, xatirəsini daim qəlbində yaşadacaq. Allahdan bütün şəhidlərimizə rəhmət, yaxınlarına səbir diləyirəm."

Mərkəz rəisi qeyd etdi ki, Xocalı soyqırımının beynəlxalq aləmə tanıdılması ilə bağlı ciddi addımlar xalqımızın ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtmasından sonra atılmağa başladı. "Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildi, 1994-cü ildə Milli Məclisin qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edildi".

Mayor İlkin Qayıbov onu da vurğuladı ki, bu il Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib xalq, qalib ordu kimi anırıq. "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ötən il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində şəhidlərimizin, Xocalı soyqırımı qurbanlarının qisasını düşməndən layiqincə aldıq. İllərdən bəri işğal altında olan tarixi torpaqlarımız erməni quldurlarından azad edildi."

Tədbirlərdə Xocalı soyqırımına həsr edilmiş kitablar və foto-stendlər nümayiş olundu.

Tədbirlər Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında Xocalıya həsr edilmiş ədəbi-bədii kompozisiya ilə sona çatdı.

**Leytenant Elçin İMANOV,
"Azərbaycan Ordusu"**

# Bakıda Pakistan hərbi nümayəndə heyəti ilə görüş keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 25-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Sərhəd İşləri Təşkilatının Baş İcraçı Direktoru general-mayor Kamal Azfarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil, mühəndis təminatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilib, hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

Tərəflər, həmçinin azad edilmiş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsi işlərinə pakistanlı mütəxəssislərin də cəlb edilməsi məsələsi, o cümlədən ölkələrimiz arasında hərbi əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

# Minaatan batareyalarının döyüş atışlı təlim məşqləri davam edir

*2021-ci ilin döyüş hazırlığı planına əsasən, minaatan batareyaların heyətləri ilə döyüş atışlı təlim məşqləri davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, minaatanların təlim prosesi Vətən müharibəsində qazanılmış döyüş təcrübəsi nəzərə alınmaqla həyata keçirilir.



# “Vətən müharibəsində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabitləri də rəşadətlə vuruşublar”







Fevralın 23-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyə mediatur təşkil olunub.

AZƏRTAC xəbər verir ki, mediatur zamanı Hərbi liseyin rəisi general-mayor Bəkir Orucov bu hərbi təhsil ocağının yaranma tarixi, inkişaf yolu və fəaliyyəti, təlim-tədris prosesi barədə ətraflı məlumat verib. Bildirilib ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıdakı 2 saylı səkkiz illik internat məktəbinin bazasında yaradılıb. 1997-ci il noyabrın 24-də Ulu Öndərin Sərəncamı ilə məktəb Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılıb.

Diqqətə çatdırılıb ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsas hədəfi orduya savadlı, bacarıqlı və vətənpərvər zabitlər yetişdirməkdir. Çalışırıq ki, gələcək zabitlərimiz - kursantlar burada yaxşı təhsil alsınlar, intizamlı olsunlar və ali hərbi məktəblərdə təhsillərini uğurla davam etdirsinlər. Onları Vətən və xalq üçün bacarıqlı, vətənpərvər zabit kimi yetişdirmək əsas vəzifəmizdir. Cəmşid Naxçıvanski adına Hərbi Lisey bu günə qədər 12 mindən çox məzun verib. Məzunlardan 20-dən çoxu general rütbəsinə qədər yüksəlib.

Qeyd olunub ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonra Hərbi liseyin məzunları ordu quruculuğunda, respublikamızın ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olublar. Liseyin məzunlarından 100-dən çoxu göstərdikləri şücaətə görə orden və medallarla təltif olunub, 11 nəfər Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. Onların adları Azərbaycanın hərb tarixinə əbədi həkk edilib.

General-mayor Bəkir Orucov bildirib ki, Hərbi liseyin zabitləri 44 günlük Vətən müharibəsində mətanətlə vuruşublar. Vətən müharibəsində Hərbi liseyin 60 nəfərlik zabit heyəti döyüş əməliyyatlarında da iştirak edib. Onlardan 3-ü yaralanıb, mayor Asiman Əliyev isə şəhid olub. Liseyin məzunlarından 18 nəfər Vətən Müharibəsi Qəhrəmanı adı, digərləri isə orden və medallarla təltif olunub.

Media nümayəndələri Hərbi liseyin tədris korpusları, tibb məntəqəsi, idman kompleksi, interaktiv tir zalı, kursant yataqxanası, yeməkxana və digər inzibati binalarla tanış olub, kursantların məişət şəraiti, hərbi və fiziki hazırlığı, tədris prosesi ilə maraqlanıblar.

Sonda jurnalistlər kursantlarla birgə nahar ediblər.

# Respublika Veteranlar Təşkilatının sədri Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşüb

*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova və sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşüblər.*

Təşkilatdan AZƏRTAC-a bildiriblər ki, İkinci Dünya müharibəsi veteranı Fatma Səttarova görüşdə çıxış edərək 44 günlük Vətən müharibəsini Azərbaycanın şanlı tarixinin ən parlaq səhifəsi adlandırıb: "Müqəddəs Vətən müharibəsi dövlətimiz və xalqımız üçün olduqca əhəmiyyətli idi. Biz torpaqlarımızı qaytardıq, faşizmi məğlub etdik. Bu müharibə xalqımızın vətənpərvərlik, birlik və rəşadətinin bir daha sübutu oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək düşməni cəbhədə, diplomatiyada və eləcə də dünya mediasında məğlub etdik. Bu gün fəxrlə deyə bilərik ki, biz qəhrəman, qalib millətik. Təəssüf ki, müharibə şəhidsiz, xəsarətsiz olmur. Sizlər Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər əllərindən gələni edirlər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız. Hər bir azərbaycanlı sizlərə borcludur. Bu Qələbəni ölümsüzlük qazanan şəhidlərimiz və siz qəhrəman qazilər bizlərə bəxş etmisiniz".

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək şəhid ailələrinə, qazilərimizə ölkəmizdə xüsusi diqqət göstərildiyini və bu sahədə dövlət tərəfindən bütün lazımi işlərin görüldüyünü bildirib. O, respublikamızın şəhid ailələri, qazi və müharibə iştirakçılarına göstərilən diqqət və qayğının dünya miqyasında nümunə sayıldığını vurğulayıb. C.Xəlilov qeyd edib ki, Prezident İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasət respublikamızın daha da güclənməsinə təkan verəcək. Yaralı hərbçilərimizin sağlamlığına qovuşması üçün zəruri tədbirlər görülür, hospitallar, reabilitasiya və sosial xidmət müəssisələrində də bunun üçün hər cür şərait yaradılıb. Respublikamızda həyata keçirilən və gündəngünə təkmilləşdirilən sosial layihələr hər bir Azərbaycan vətəndaşını, xüsusən şəhid ailələrini, qaziləri və müharibə iştirakçılarını əhatə edir.

"Hər birinizə Allahdan cansağlığı arzulayıram. İnanıram ki, təcrübəli həkimlərimizin rəhbərliyi ilə hospitalın tibbi personalı sizin sağlamlığınızı tezliklə bərpa edəcək. İşğaldan azad edilmiş torpaqlarımızda yeni, müasir tələblərə cavab verən, şəhər, qəsəbə və kəndlərin inşasında, respublikamızın çiçəklənməsində bundan sonra da fədakarlıqla, əzmlə çalışacaqsınız. Sizlər - rəşadətli və qorxmaz əsgər və zabitlərimiz hər zaman Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqsınız", - deyə ehtiyatda olan polkovnik Cəlil Xəlilov vurğulayıb.

Sonda görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# "Tovuz döyüşləri - Qələbəyə aparan yollar"

## Müdafiə Nazirliyinin təşkilatçılığı ilə tədbir keçirilib



*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə İsmayıllı rayonunun Balik kəndində Tovuz döyüşlərinin ilk şəhidlərindən olan əsgər Xəyyam Məhəmməd oğlu Daşdəmirovun ad günündə "Tovuz döyüşləri - Qələbəyə aparan yollar" adlı tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə şəhidin məzarı ziyarət olunub, Müdafiə Nazirliyinin adından önünə çələng və gül dəstələri qoyulub. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olan Vətən övladlarının xatirəsi yad edilib.

Layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Tovuz döyüşlərindən ətraflı söhbət açaraq deyib:

"2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi ələ keçirmək məqsədilə artilleriyadan istifadə etməklə qəflətən hücuma keçməyə cəhd göstərmiş, lakin Azərbaycan Ordusunun adekvat tədbirləri nəticəsində düşmənə tutarlı zərbələr endirilmiş və o, itki verərək geri çəkilməyə məcbur edilmişdir.

Həmin döyüşdə ordumuzun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş çavuş Vüqar Sadıqov və baş əsgər Elşad Məmmədov qəhrəmancasına şəhid olmuş, beş nəfər hərbi qulluqçumuz isə yaralanmışdır. Yaralılara vaxtında ilk yardım göstərilərək döyüş meydanından təxliyə edilsələr də, onlardan biri - gənc əsgər Xəyyam Daşdəmirov az sonra şəhid olmuşdur.

Döyüşlərin bilavasitə iştirakçısı olan polkovnik A.Qurbani nəzərə çatdırıb ki, iyulun 13-nə keçən gecə döyüşlər daha da intensivləşmiş, düşmən məkrli və hiyləgər niyyətini davam etdirmişdir. Cavab olaraq artilleriya, minaatan və tankların tətbiqi ilə gecə döyüşləri zamanı bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqəsi, artilleriya qurğusu, avtomobil texnikası və xeyli canlı qüvvəsi məhv edilmişdir.

Ertəsi gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyərək artıq şəhidlərimizin intiqamının alındığını və bundan sonra da alınacağını bildirmiş və demişdir: "Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun yerini göstərəcəyik. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq".

Prezident İlham Əliyev bir daha qətiyyətlə bəyan etmişdir ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin.

"Ermənistan hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyib, mövqelərimizi məhv etmək istəyib, mülki əhalini, kəndlərimizi atəşə tutub", - deyən Ali Baş Komandan "dəmir yumruğunu" göstərərək axırıncı dəfə Ermənistanın siyasi və hərbi rəhbərliyinə xəbərdarlıq etmişdir ki, bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq.



Lakin yenə də düşmən öz çirkin niyyətlərindən əl çəkmədikdə görülən hərbi cəza tədbirləri nəticəsində onun atəş mövqeləri, kəşfiyyat bölməsinin radiolokasiya stansiyası, hərbi avtomobil texnikası üçün saxlanc, müxtəlif təyinatlı hərbi texnika və döyüş vasitələri, komanda məntəqəsi, tabor qərargahı, hərbi infrastrukturu, müdafiənin dərinliyindəki ehtiyatlar və 20 nəfərdən çox canlı qüvvəsi məhv edilmişdir.

Diqqətə çatdırılıb ki, Tovuz döyüşlərində şəhidlər versək də, düşmən bir qarış da irəliləyə bilməmiş və arzusu gözündə qalmışdır.

Qədirbilən xalqımız Tovuz döyüşlərinin şəhidlərini: general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, baş çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov, əsgər Xəyyam Daşdəmirov və digər igid oğullarımızı böyük izdihamın iştirakı ilə son mənzilə uğurlamışdır.

Tədbirdə bir daha vurğulanıb ki, həmin günlərdə bütün xalq Ali Baş Komandan İlham Əliyevin ətrafında daha da sıx birləşmiş, torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda döyüşlərə hazır olduqlarını bildirmiş, minlərlə insan Müdafiə Nazirliyinə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə və şöbələrinə üz tutaraq könüllü döyüşlərə yollanmaq üçün qeydiyyata alınmışlar.

Həmin günlər bütün ölkə vətənpərvərlik hissi, qələbəyə inam hissi ilə yaşayırdı. Məhz Tovuz döyüşləri 27 sentyabrda "Dəmir yumruq" əməliyyatı ilə başlayacaq 44 günlük Vətən müharibəsində qələbəyə aparan yolların başlanğıcı kimi müasir hərb tariximizə düşmüşdür.

Ehtiyatda olan polkovnik-leytenant Əlişir Süleymanov da Tovuz döyüşlərini xatırlayıb. Şəhid əsgər Xəyyam Daşdəmirovun və digər şəhidlərimizin intiqamını almaq üçün bütün xalqın ayağa qalxdığını, meydanlara axışdığını yada salıb və bundan böyük qürur duyduğunu dilə gətirib. "Mən ahıska türklərindənəm. 1989-cu ildə Özbəkistanda milli zəmində törədilən iğtişaşlardan sonra ailəmizlə birlikdə Azərbaycana pənah gətirmişik. Azərbaycan xalqı öz doğma qardaşları, əzizləri kimi bizə qucaq açıb. O gündən İsmayıllı rayonunda məskunlaşmışıq. 1992-ci ildə indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişəm. Ağdam, Goranboy, Murovdağ, Gədəbəy, Beyləqan, Füzuli istiqamətlərində döyüşlərdə iştirak etmişəm. Xidmətlərim yüksək qiymətləndirilib. Ehtiyata buraxılmağıma baxmayaraq, bu gün də Azərbaycan uğrunda hər bir əmrə hazıram. Vətən müharibəsinin ilk günlərindən cəbhə bölgələrində döyüşən orduya mənəvi və maddi dəstəyimi heç vaxt əsirgəməmişəm. Bu gün də Vətənin müsəlləh əsgəri kimi hər bir əmrə hazıram.

Möhtərəm Prezidentimizin, eləcə də Müdafiə Nazirliyi rəhbərliyinin şəhidlərə, şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirənlərə göstərdiyi diqqət və qayğı təqdirəlayiqdir. Bu gün Tovuz döyüşlərinin ən gənc şəhidi olan əsgər Xəyyam Daşdəmirovun ad günü münasibətilə bu tədbirin keçirilməsi şəhid ailəsinə sanki dünyanı bağışladı, onlara böyük təsəlli oldu. Həqiqətən də, qəhrəmanlıq qəhrəmanla ölmür, onun ömrü uzun olur. Şəhid ailəsinin istəyi odur ki, övladları unudulmasın, xatirələri əziz tutulsun. Mən şəxsən Müdafiə Nazirliyinə bu tədbirə görə dərin minnətdarlığımı bildirirəm".

Kənd tam orta məktəbinin direktoru, Xəyyamın ilk müəllimlərindən olan Ağagül Səfərov sevimli şagirdini yada salaraq kövrəlib. O, deyib: "Xəyyam haqqında keçmiş zamanda danışmaq hər birimiz üçün çətindir. Ancaq onu da yaxşı bilirik ki, qələbə qurbansız olmaz. Mən özüm də Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. Fəxr edirəm ki, şagirdlərim bizim görə bilmədiyimiz işləri görüblər, bizim qalxa bilmədiyimiz ən yüksək məqama ucalıblar. Xəyyamın şəhidliyindən sonra sanki kəndimizin cavanları bir az da mübarizləşiblər. Kəndimizə gedib-gələnlərin də sayı çoxalıb. Yollarımıza asfalt çəkilib, mərkəzi küçəmiz əsgər Xəyyam Daşdəmirovun adını daşıyır, xatirə lövhəsi vurulub. Bütün bunlar gənclərimizdə vətənpərvərlik hissini, hərbi peşələrə marağı daha da artırır. Vətən müharibəsinə gedən yollar Tovuz döyüşlərindən başlanıb və biz fəxr edirik ki, bu döyüşlərin ilk şəhidlərindən biri də bizim kəndin yetirməsidir.

İsmayıllı rayon Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov şəhid əsgər X.Daşdəmirovun idman uğurlarından, dəfələrlə respublika yarışlarında medal və diplomlara layiq görüldüyündən, rayonun idman şərəfini qoruduğundan iftixarla danışıb və onu heç vaxt unutmayacaqlarını, yazda isə Xəyyamın xatirəsinə karate üzrə rayon birinciliyini təşkil edəcəklərini planlaşdırdıqlarını vurğulayıb.

Gənclər adından çıxış edən Elbəy Fətəliyev şəhidlərimizin intiqamını almaq üçün yüzlərlə ismayıllılı gəncin hərbi xidmətə, döyüşlərə böyük həvəslə yollandıqlarını, bütün cəbhələrdə düşmənə qarşı amansız mübarizə apardıqlarını və bu gün də Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını qeyd edib.

Şəhidin atası, Birinci Qarabağ müharibəsində 4 il mütəmadi olaraq Ağdam uğrunda döyüşlərdə fəal iştirak edən Məhəmməd Daşdəmirov göstərilən diqqətə görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını, həmçinin digər oğlu ilə birlikdə Vətən uğrunda döyüşlərə yenə də hazır olduğunu deyib.

Şəhid məzarı qarşısında keçirilən tədbirdən sonra onun boya-başa çatdığı ata ocağı ziyarət olunub, üzərində şəhidin portreti olan xalça anasına hədiyyə edilib.

Vüsalə ana şəhid oğlunun ad günündə belə bir tədbirin təşkilində zəhməti olan hər kəsə minnətdarlıq edərək "Təki Vətən sağ olsun! Oğul düşmən çəpəridir", - deyib.

Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısının alınması ilə başlayan, 44 gün davam edən və rəşadətli Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən Vətən müharibəsi bir daha göstərdi ki, ən çətin və məsuliyyətli tapşırıqları tərəddüd etmədən yerinə yetirməyə qadir güclü ordunun yaradılmasında dərin düşüncəli və yüksək hazırlıqlı zabit heyətinin əvəzolunmaz rolu vardır. Qarşıya qoyulan istənilən hərbi təyinatlı tapşırığın icrasının planlaşdırılması, təşkili, şəxsi heyətin bu tapşırıqların icrasına bütünlüklə səfərbər edilməsi məhz zabit və komandir heyətinin yüksək bilik və bacarığı sayəsində mümkündür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında peşəkar, bilikli, yüksək təşkilatçılıq qabiliyyətinə malik, ən əsası Vətəninə və Ali Baş Komandanına sadiq zabit və komandir heyətinin yetişdirilməsi məqsədilə respublikada xüsusi əhəmiyyət kəsb edən hərbi təhsil sistemi yaradılmışdır. Bu təhsil sisteminin mühüm pillələrindən birini də Silahlı Qüvvələrin Hərbi Akademiyasında həyata keçirilən təhsil təşkil edir.

Yüksək ixtisaslı zabitlərin hazırlanması və təkmilləşdirilməsi kimi mühüm vəzifələrin həyata keçirildiyi bu təhsil ocağının yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda yüksək ixtisaslı hərbi kadrların hazırlanmasına ehtiyacı nəzərə alaraq, 1999-cu ilin fevralında ulu öndər Heydər Əliyev tərəfindən Silahlı Qüvvələrin Hərbi Akademiyasının fəaliyyətə başlaması haqqında fərman imzalandı. Hərbi kurs kimi fəaliyyətə başlayan bu müəssisənin sonradan mütəşəkkil bir təhsil ocağına çevrilməsi qərara alındı. Ötən illərin tarixi təhlili və eləcə də hərbi kadrların hazırlanması sahəsində əldə edilmiş nəticələr göstərdi ki, belə bir təhsil ocağının yaradılması Azərbaycan Respublikası Silahlı Qüvvələrinin perspektiv inkişafına hesablanmış strateji əhəmiyyətli bir qərardır.

Hazırda Azərbaycan Ordusunun elə bir birləşmə, birlik strukturu, əməliyyat-strateji idarəetmə orqanı yoxdur ki, orada Hərbi Akademiyanı bitirmiş zabit və komandir kadrlarına rast gəlinməsin. Azərbaycan Ordusunun təkmilləşməsində, güclənməsində və yüksək döyüş hazırlığı ilə fərqlənməsində bu kadrların rolu danılmazdır. 44 günlük Vətən müharibəsinin nəticələri də bunu əyani şəkildə sübut etdi.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının təsdiq olunmuş Əsasnaməsində bu təhsil ocağı üçün çoxşaxəli vəzifələr nəzərdə tutulur:

- Azərbaycan Ordusunun ehtiyacı baxımından hərb elmləri üzrə yüksək nəzəri biliklərə və praktiki vərdişlərə yiyələnmiş komandir və qərargah zabitlərinin hazırlanması;
- hərbi kadrların hazırlanmasının təkmilləşdirilməsi məsələlərinin həllinə yönəlmiş fundamental elmi tədqiqat işlərinin təşkili və həyata keçirilməsi;
- elmi, pedaqoji kadrların hazırlanması, komandir və müəllim heyətindən olan zabitlərin ixtisasının artırılması;
- hərbi hissələrin döyüş qabiliyyətinin yüksəldilməsi üçün elmi tədqiqatların aparılması və s.

Hazırda Hərbi Akademiyada bu vəzifələri uğurla icra edən peşəkar, savadlı və təcrübəli bir kollektiv formalaşmışdır. Bu kollektivin fədakar fəaliyyəti sayəsində Hərbi Akademiyada təhsil dünya standartları səviyyəsinə çatdırılmışdır. Əvvəllər təhsilin



# Silahlı Qüvvələrin Hərbi Akademiyası - qalib komandirlər yetişdirən təhsil ocağı

təşkilində inkişaf etmiş ölkələrin elmi-pedaqoji təcrübəsindən səmərəli şəkildə istifadə edilirdisə, hazırda hərbi təhsilin Azərbaycan təcrübəsi də formalaşmaqdadır.

Hərbi Akademiyanın təhsil prosesində əsas diqqət, heç şübhəsiz ki, yeni biliklərin verilməsinə, bu biliklərin təcrübə ilə əlaqələndirilməsinə, mürəkkəb şəraitdə düzgün qərar qəbul edən və onun səmərəli icrasını bacaran komandir və qərargah heyətinin formalaşdırılmasına yönəldilmişdir. Çünki günbəgün müasirləşən və daim inkişaf edən hərb elmi və hərb işi təfəkkür və intellektin inteqrasiyasını tələb edir. Bu keyfiyyətlərin dinləyicilərdə formalaşdırılması işi isə müəllim-pedaqoji heyətinin üzərinə düşür. Təhsil prosesinə qoyulan yüksək tələblər, təhsilin nəzəri və praktiki mərhələlərinin uğurla və düzgün əlaqələndirilməsi Azərbaycan Ordusunun yüksək ixtisaslı yeni komandir və qərargah zabitləri ilə təmin edilməsinə öz töhfəsini verdi. 44 günlük Vətən müharibəsi Hərbi Akademiyada məhz belə komandir və qərargah heyətinin yetişdirilməsinə bariz nümunə oldu. Belə ki, Azərbaycan xalqının tarixi qələbəsi ilə nəticələnən bu müharibədə Hərbi Akademiyanın məzunu olmuş zabitlər iştirak etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında bu komandir və qərargah heyəti hazırda dünyanın ən inkişaf etmiş ölkələrinin hərbi strukturları tərəfindən öyrənilməkdə olan bir döyüş və fəaliyyət təcrübəsi nümayiş etdirdilər.

Vətən müharibəsini zəfərlə sonlandıran Azərbaycan Ordusunun bütün şəxsi heyətinin, o cümlədən zabit heyətinin təşkilatçılıq və idarəçilik məharəti, Vətənin haqq işinə sədaqəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Onların arasında Hərbi Akademiyanın məzunu olmuş zabitlər də az deyildi.

Vətən müharibəsində Hərbi Akademiyanın məzunları ilə yanaşı, təcrübəli müəllim və pedaqoji heyəti də iştirak edirdi. Hərbi Akademiyada təhsil prosesinə cəlb edilmiş neçə-neçə təcrübəli zabit müharibənin başlaması ilə cəbhə bölgəsinə yollandı, yeni hissə və strukturların formalaşmasında iştirak etdi və ağır döyüşlərin qəhrəmanı oldular. Əldə edilmiş uğurlara görə, Hərbi Akademiyanın rəhbərliyi, müəllim-pedaqoji heyətinin üzvləri dövlətin yüksək mükafatlarına layiq görüldülər.

Digər tərəfdən Vətən müharibəsinin təcrübəsinin ciddi şəkildə araşdırılması, təhlili, hərb məharəti sahəsində nümunələrin öyrənilməsi və onun təhsil prosesinə inteqrasiyası Hərbi Akademiyanın müəllim-pedaqoji və elmi kollektivinin qarşısında yeni vəzifələr qoyur. Ona görə də Vətən müharibəsi təcrübəsinin və tarixinin öyrənilməsi istiqamətində Hərbi Akademiyada artıq elmi araşdırmalara başlanmışdır.

Ümumiyyətlə, Hərbi Akademiyanın fəaliyyətinin mühüm tərkib hissəsini elmi fəaliyyət təşkil edir. Elmi işlərin təşkili və aparılması, eyni zamanda, hərbi-elmi kadrların hazırlanması məqsədilə 2014-cü ildə Hərbi Akademiyada Adyunktura və elm şöbəsi yaradılıb. Bu şöbə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına uyğun olaraq neft kapitalının insan kapitalına çevrilməsi sahəsində əhəmiyyətli işlər görür. Hazırda Hərbi Akademiya respublikada hərbi-elmi araşdırmaların mərkəzinə çevrilib. Son illər ulu öndər Heydər Əliyev irsinin öyrənilməsi, Azərbaycan Ordusunun və hərb tarixinin fundamental tədqiqilə bağlı Hərbi Akademiyanın Adyunktura və elm şöbəsində çalışan təcrübəli alimlər tərəfindən çox ciddi işlər görülüb və onların araşdırmaları işıq üzü görüb. Hərbi Akademiyanın kollektivi tərəfindən aparılan araşdırmaların nəticələri bu təhsil ocağının nəzdində fəaliyyət göstərən və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər siyahısına düşmüş üç elmi jurnalda (Milli təhlükəsizlik və hərbi elmlər, Hərbi bilik, Hərbi icmal), eyni zamanda, xarici mətbu nəşrlərdə çap olunur.

Ali Attestasiya Komissiyası ilə əməkdaşlıq nəticəsində hərbi-elmi kadrların yetişdirilməsi məqsədilə "Milli təhlükəsizlik və hərbi elmlər" ixtisası üzrə elmi istiqamət müəyyənləşdirilib və bu istiqamət üzrə kadrların hazırlanması Adyunktura və elm şöbəsi tərəfindən uğurla həyata keçirilir. Hazırda Adyunktura və elm şöbəsində 46 nəfər fəlsəfə, 5 nəfər isə elmlər doktoru pilləsində təhsilini davam etdirir. Ötən illərdə artıq 3 nəfər fəlsəfə və bir nəfər də elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işlərini uğurla müdafiə edib, Ali Attestasiya Komissiyasının qərarı ilə bu elmi dərəcələrə layiq görülmüşdür.

Hazırda Hərbi Akademiyanın nəzdində "Strateji tədqiqatlar və dövlət müdafiəsini idarəetmə akademik kursu" fəaliyyət göstərir. Hərbi Akademiya yarandığı ildən fəaliyyət göstərən bu kursda Müdafiə Nazirliyinin, digər güc strukturlarının və mülki nazirliklərin yüksək vəzifəli kadrlarına ölkənin təhlükəsizliyi və müdafiəsinin təşkili ilə bağlı xüsusi biliklər verilir. Həmçinin bu kursda respublikanın bütün strateji fəaliyyət sahələri üçün kadrlar hazırlanır.

Hərbi Akademiyanın nəzdində, həmçinin "Xarici dil və tərəfdaşlıq mərkəzi" də fəaliyyət göstərir. Mərkəzdə zabitlərə ingilis, rus, fars, erməni dilləri tədris olunur. Tədrisin keyfiyyətinin artırılması məqsədilə beynəlxalq tərəfdaşlarla işgüzar əlaqələr qurulmuş və kursun işinə təcrübəli mütəxəssislər cəlb olunublar.

Bir sözlə, respublikanın müstəqilliyinin və ərazi bütövlüyünün təmin edilməsinə və müdafiəsinə qadir olan rəşadətli Azərbaycan Ordusunun möhkəmləndirilməsi istiqamətində Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəhbərliyi və müəllim-pedaqoji heyəti fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun davam etdirməkdədir. Yaradılmasının 22-ci ili münasibətilə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Akademiyanın kollektivinə ünvanladığı təbrik məktubunda da yüksək ixtisaslı zabit kadrlarının hazırlanması sahəsində görülən işləri yüksək qiymətləndirmiş və kollektivə ən xoş arzularını ifadə etmişdir. Şübhəsiz ki, dəyərli xidmətləri bütün xalqımız tərəfindən minnətdarlıqla qarşılanan yüksək ixtisaslı zabit kadrlarının hazırlanmasında Hərbi Akademiya uğurlu fəaliyyətlərini bundan sonra da davam etdirəcək və Azərbaycanın müdafiə potensialının artırılmasına öz töhfəsini verəcəkdir.

**Polkovnik**
**Rəşad TAHİROV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyası**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə “Mavi Vətən-2021” təlimlərinə 87 gəmi, 27 təyyarə və 20 helikopter cəlb olunacaq



Türkiyənin Hərbi Dəniz Qüvvələrinin fevralın 25-dən martın 7-dək keçiriləcək "Mavi Vətən-2021" təlimlərinə 87 gəmi, 27 təyyarə və 20 helikopter cəlb olunacaq.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat verib.

Məlumatda qeyd edilib ki, ölkənin Hərbi Dəniz Qüvvələri ilə yanaşı, Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin də iştirak edəcəyi təlimlər Egey və Aralıq dənizlərinin Türkiyəyə aid ərazi sularında keçiriləcək. Təlimlərdə pilotsuz uçuş aparatlarının (PUA) dəniz əməliyyatlarında operativ və taktiki sınaqlarının keçirilməsi, Hərbi Dəniz Qüvvələrinə bağlı qərargah, birlik və gəmilərin hazırlıq səviyyəsinin qiymətləndirilməsi nəzərdə tutulur.

Təlimlərə Hərbi Dəniz Qüvvələrinin 82 gəmi, 5 dəniz polisi təyyarəsi, 12 dəniz helikopteri, PUA-lar, "Amfibiya" dəniz piyada birlikləri və SATSAS qrupları, Quru Qoşunlarına aid helikopterlər, Hərbi Hava Qüvvələrinin F-16, F-4 qırıcı təyyarələri, eləcə də Havadan Xəbərdarlıq və Nəzarət (HİK) təyyarələri, Sahil Mühafizə Xidməti və digər qurumların qüvvələri də cəlb ediləcəklər.

## Ukrayna və Pakistan arasında hərbi sahədə əməkdaşlıqla bağlı saziş imzalanıb




Ukraynanın "Ukrspetsexport" dövlət şirkəti ilə Pakistan arasında T-80UD tank parkının təmiri ilə bağlı ümumi dəyəri 85,6 milyon dollar olan saziş imzalanıb. Sənəd Əbu-Dabidə keçirilən IDEX-2021 beynəlxalq silah sərgisi çərçivəsində imzalanıb.

"Ukrspetsexport"un baş direktoru Vadim Nozdrya bunun "Ukroboronprom" Şirkətlər Qrupunun ən səmərəli ixracatçılarından biri olan şirkətin bu il Pakistanla ilk sazişi olduğunu qeyd edib. Pakistan tərəfi ilə 2021-ci ilin sonuna qədər əməkdaşlığın genişləndirilməsi və yeni layihələrin həyata keçirilməsi məsələləri də müzakirə olunub. Bundan əlavə, Ukrayna nümayəndə heyəti artıq Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və Səudiyyə Ərəbistanı nümayəndə heyətləri ilə bir sıra danışıqlar aparıb və hərbi sahədə əməkdaşlıq barədə razılaşmalar əldə edib.

## Yunanıstanın döyüş təyyarələri Türkiyəyə məxsus gəmiyə hücum edib



Yunanıstan Hərbi Hava Qüvvələrinə məxsus F-16 qırıcı təyyarələri Şimali Egey dənizinin beynəlxalq sularında hidroqrafik sahədə elmi və texniki araşdırmalar aparan Türkiyəyə məxsus "Çeşmə" gəmisinə hücum edib.

Bununla bağlı Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar açıqlama verib.

Nazir bildirib ki, 1000 metr yüksəklikdən edilən hücuma lazımi cavab verilib.

Qeyd edilib ki, Türkiyə Egey dənizi və Aralıq dənizinin şərq hissəsi ilə bağlı mübahisələri beynəlxalq hüquq, dialoq və mehriban qonşuluq münasibətləri çərçivəsində həllinə dair mövqeyini qoruduğu halda Yunanıstan bölgədəki gərginliyi artırmaq üçün hər cür fəaliyyəti davam etdirir. Yanvarın 25-də başlanan müzakirələrin ardından Yunanıstan tərəfi İskiri adasının şimal-qərbindəki beynəlxalq sular da daxil olmaqla bölgədə 20 gəmi və təyyarə ilə "Şimşək-21" təlimini və bu kimi bir sıra digər fəaliyyətləri həyata keçirib.

Nazir Türkiyənin həmin bölgədə apardığı hidroqrafik və seysmik fəaliyyətin tamamilə elmi araşdırma məqsədilə həyata keçirildiyini vurğulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Yeni istirahət kompleksi Vətən müharibəsində ordumuzun tarixi Zəfərini əks etdirəcək

## Hərbi Qənimətlər Parkı salınır






*Qırx dörd günlük müharibədə Silahlı Qüvvələrimizin düşmənə qarşı tətbiq etdiyi taktiki yeniliklər, müasir silah və texnikadan istifadə hərb sənətində yenilik kimi dünyanın güc mərkəzlərində bu gün öyrənilir. Xalqımızın Vətən müharibəsində misilsiz qəhrəmanlığının və qazandığı tarixi Zəfərin əbədiləşdirilməsi üçün Azərbaycan Prezidentinin Sərəncamı ilə paytaxtımızda Zəfər Muzeyi inşa olunur və Hərbi Qənimətlər Parkı salınır.*

Bu günlərdə Xətai rayonunun ərazisində tikintisi sürətlə davam etdirilən Hərbi Qənimətlər Parkında görülən işlərlə tanış olduq. Yeni istirahət ocağının yaradılması işlərində Müdafiə Nazirliyi ilə Bakı şəhəri İcra Hakimiyyəti birgə fəaliyyət göstərirlər. Müdafiə Nazirliyinin görülən işlər üzrə koordinatoru polkovnik-leytenant Emil Məmmədov parkda işlərin gedişi ilə bağlı məlumat verdi:

- Yeddi hektara yaxın dənizkənarı ərazidə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü və sərəncamı ilə bu park artıq dekabrın əvvəllərindən yaradılmağa başlanıb. Bizə tapşırılan işləri yüksək səviyyədə yerinə yetirmək üçün, demək olar ki, bütün xidmət növlərindən mütəxəssislər ayrılıb, işçi heyəti cəlb edilib. Dövlət başçısının göstərişinə əsasən elə bir park yaradılmalıdır ki, 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun göstərdiyi misilsiz qəhrəmanlıq və qazandığı möhtəşəm tarixi Zəfər barədə dolğun təsəvvür yaransın. Azərbaycanın qəhrəmanlıq tarixi ilə maraqlanan vətəndaşlarımız və ölkəmizə qonaq gələn əcnəbilər burada açıq səma altında maraqlı və unikal bir muzeylə tanış olmaq imkanı qazanacaqlar.

Ermənistanın kapitulyasiyasından bir gün sonra, ötən il noyabrın 11-də Prezident İlham Əliyev hərbçilərlə görüşü zamanı düşməndən qənimət götürülmüş hərbi texnikanın Bakıya gətirilməsi, onların nümayiş etdirilməsi üçün yer seçilməsi barədə göstəriş verdiyini demişdi. Yəni, bu parkın yaradılmasına dövlət başçısının xüsusi önəm verdiyi o vaxtdan bəlli idi.

Bu ərazinin tələb olunan vəziyyətə gətirilməsi üçün Bakı şəhəri İcra Hakimiyyəti tərəfindən xeyli işlər görülüb. Kənardan torpaq daşınıb və ərazidə düşmən mövqelərinə uyğun relyef yaradılıb. Parkda işləri görmək üçün şəhər rəhbərliyi tərəfindən texnikalar cəlb edilib. Ancaq burada ən böyük məsuliyyət hərbçilərin üzərinə düşür. Parkın təyinatına uyğun təchizatını Müdafiə Nazirliyinin mütəxəssisləri, ekspertləri aparır.

Maraqlıdır ki, düşmən müdafiə mövqelərində avtomobil təkərlərindən geniş istifadə edirdi. Bunun səbəbi odur ki, təkərlər mərmi qəlpələrinin geniş səpələnməsi və əsgərlərə xətər yetirməsinin qarşısını alırdı. Parkdakı istehkam qurğularında düşmənin yararlandığı bu məqam öz əksini tapacaq.





Koordinatorun sözlərinə görə, Ermənistan ordusunun bütün qoşun növlərinə məxsus 130-a yaxın qismən istifadəyə yararlı və ya tam yararsız döyüş texnikası parkda öz yerlərini tutmaqdadır. Düşmənin həmin döyüş texnikasının bir qismi ötən il dekabrın 10-da keçirilən Zəfər paradında xalqımıza və eləcə də dünyaya nümayiş etdirildi.

Ümumiyyətlə, parkda düşmənin uzun illər boyu yaratdığı müdafiə mövqelərinin real mənzərəsi canlandırılır. Buraya gələn insanlar Vətən müharibəsi günlərində düşmənin mühəndis maneələri sistemini -sədləri, beton örtüklü mühəndis qurğularını, tank əleyhinə xəndəkləri, dirəkləri, kirpiləri, minalanmış sahələri, tunelləri, tikanlı məftillərdən ibarət maneələr sistemini, səngərləri və sığınacaqları olduğu kimi görəcəklər. Avtomobillər, zirehli texnikalar, artilleriya qurğuları açıq səma altında qonaqlara nümayiş etdiriləcək.

Ermənistan ordusunun döyüş mövqelərindən gətirilmiş, əsgərlərimizin atıcı silahlardan atdığı güllələrin izlərini özündə saxlayan dəmir mazğallar, uzunmüddətli dəmir-beton atəş nöqtələri parkda qurulmuş mövqelərdə yerləşdirilib. Bu mövqelər 30 il ərzində elə möhkəmləndirilmişdi ki, hətta ağır artilleriya zərbələrilə dağıtmaq çətin idi.

Parka gələn insanlar burada yaradılan qurğuları gördükdən sonra həmin mövqeləri rəşadətli Azərbaycan Ordusunun necə yarması, necə böyük qəhrəmanlıq göstərməsi barədə təsəvvür ala biləcəklər.

Eyni zamanda, Ermənistan ordusu bölmələrinin döyüş mövqelərində xidmət və məişət şəraiti Hərbi Qənimətlər Parkında öz əksini tapacaq. Burada Ermənistan ordusu bölmələrinin döyüş mövqelərində təchiz edilmiş əsgər yataqxanası olduğu kimi qurulur.

Parkda düşmənin müharibə zamanı atıb qaçdığı dəbilqələrdən ibarət təpəlik yaradılacaq. Həmçinin ordumuzun böyük Zəfərinə həsr olunan hərbi paradda nümayiş etdirilmiş erməni avtomobillərinin nömrələrindən ibarət lövhə qonaqlara nümayiş etdiriləcək.

Müharibə günlərində o da məlum oldu ki, döyüş mövqeyini tərk etməsin, məcbur olub vuruşsun deyə, düşmən öz əsgərlərini postlarda it kimi zəncirləyirdilər. Prezident İlham Əliyevin müharibə günlərində dillərə düşmüş məşhur "iti qovan kimi qovuruq" ifadəsi, əslində, həqiqəti əks etdirirdi. Parka gələnlər bu cür postları və zəncirlənmiş zinvorların müqəvva-mulyajlarını da görmək imkanı qazanacaqlar.

Azərbaycana qarşı olduqca məkrli, öz qeyri-insani xislətini gerçək əməllərində büruzə vermiş, işğal etdikləri əraziləri viran qoymuş düşmənin vəhşiliklərini unutmaq olmaz. Hərbi Qənimətlər Parkı da, əslində, son 30 ildə Azərbaycan torpaqlarında barbarlıqlar törətmiş yağını daha yaxşı tanımağa kömək edəcək.

**Əbülfət QASIMOV**

# İdman

### Azərbaycan güləşçisi Dünya Çimərlik Oyunlarının bürünc medalçısı elan olunub



Dünya Çimərlik Oyunlarının güləş yarışlarında iki çəkidə medalçılar dəyişib. Ümumdünya Antidopinq Agentliyi (WADA) 2019-cu ilin oktyabrında Qətərin paytaxtı Dohada keçirilmiş ilk Dünya Çimərlik Oyunlarının güləş yarışlarında qadınlarda 50 kiloqramda, kişilərdə isə 90 kiloqramdan yuxarı çəki dərəcələrində çıxış edən idmançılardan birinin dopinq testinin müsbət çıxdığını elan edib.

Qadağan olunmuş preparatdan istifadə etdiyi aşkarlanan iranlı Puya Rəhmani qazandığı qızıl medaldan məhrum olub. Nəticədə ən ağır çəkidə növbəti yerləri tutanlar müvafiq olaraq bir pillə yüksəliblər. Beləliklə, Ufuk Yılmaz (Türkiyə) qızıl, Mamuka Kordzaya (Gürcüstan) gümüş, güləşçimiz Oyan Nəzəriani isə bürünc medalçı elan olunublar. Qeyd edək ki, O.Nəzəriani yarımfinalda dopinqdən istifadə edən Rəhmaniyə məğlub olmuşdu.

### Azərbaycan millisi Moldova yığmasına qalib gəlib



Fevralın 23-də qadın futbolçulardan ibarət Azərbaycan milli komandası Avropa çempionatının seçmə mərhələsi çərçivəsində qrupda sonuncu oyununu keçirib.

Bakıdakı "ASK Arena"da Moldova yığması ilə qarşılaşan milli komandamız 1:0 hesabı ilə qələbə qazanıb. Yığmamızın heyətində Aysun Əliyeva fərqlənib.

### Daşkənddə "Böyük dəbilqə" turnirində 13 cüdoçumuz iştirak edəcək



Martın 5-də Daşkənddə cüdo üzrə "Böyük dəbilqə" turniri start götürəcək.

Yarışda Azərbaycanın 13 cüdoçusunun iştirakı planlaşdırılıb. Belə ki, kişilər arasında Kəramət Hüseynov, Oruc Vəlizadə (hər ikisi 60 kq), Nicat Şıxəlizadə, Orxan Səfərov (hər ikisi 66 kq), Rüstəm Orucov (73 kq), Murad Fətiyev, Hidayət Heydərov (hər ikisi 81 kq), Məmmədəli Mehdiyev (90 kq), Aslan Mirzəyev (hər ikisi 100 kq), Uşangi Kokauri (100 kiloqramdan yuxarı) iştirakı nəzərdə tutulub. Qadınların yarışında isə mübarizə aparmaq üçün Aişə Qurbanlı, Leyla Əliyeva (48 kq) və İrina Kindzerskanın (78 kiloqramdan yuxarı) adları siyahıya daxil edilib.

### "Karabakh is Azerbaijan": Şahmatçılar "Kalbajar Cup"da mübarizə aparacaqlar




"Karabakh is Azerbaijan" onlayn şahmat seriyasının 7-ci mərhələsi keçiriləcək.

Chess.az saytının təşkil etdiyi və "Azerfon" şirkətinin baş sponsoru olduğu seriya yarışının "Kalbajar Cup" adlı mərhələsi fevralın 28-də baş tutacaq.

Turnir İsveçrə sistemi üzrə keçiriləcək və 11 turdan ibarət olacaq. Turnirdə vaxta nəzarət 3 dəqiqə, hər gedişə 2 saniyə olacaq.

İndiyədək keçirilmiş 6 turnirdə ümumi hesabda Azərbaycan şahmatçısı Elnur Mehtiyev 30 xalla liderlik edir. Digər şahmatçımız Orxan Bağırov 20 xalla ikinci, Türkiyə təmsilçisi Kutay Sakmak 16 xalla üçüncü yerdədir.

Seriya ümumilikdə səkkiz turnir və böyük finaldan ibarətdir. Hər bir turnir işğaldan azad olunmuş şəhərlərimizin adını daşıyır.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 138
Nüsxə 4050